## İlqar Cəmil

### Hayıf

Gözlədim yolunu gəlib çıxmadın,
Gözləri yollarda qalana hayıf,
Başım üstə şimşək kimi çaxmadın,
Sözünü tutmayan yalana hayıf.

Qəm sazı çalıram neçə illərdi,
Hicran bağçasında solan güllərdi,
Gözümdən qanyaşı axan sellərdi,
Buludtək içindən dolana hayıf.

Fikirini çəkməkdən qalmadı halım,
Bilmirəm mən harda xəyala dalım?
İtiyim itibdir, de hardan alım?
Bəyaz zülflərini yolana hayıf.

Şah qamətim sındı, öz butağından,
Gür bulaq qurudu, öz yatağından,
Rəsmin şölə saçır öz otağından,
Baxıram, gül təki solana hayıf.

Çəkib getdin, nisgil qalana yazıq,
Qəm üstə sızlayan, həzin avazıq,
Bizi yetim qoydun, tək qaldıq, azıq,
Xatirəni yada salana hayıf.

Hər zaman baş idin, vicudumda baş,
Yerin ürəyimdə, qalıb yeri boş,
Vaxtsız itirmişik, əsl bir qardaş,
Səni axtarana, bulana hayıf.